

■ Cavad Zeynal

## BİR DAŞ DÜŞÜB QƏRİBLİYƏ

Yükü əyib bir yolçunun,
Bir daş düşüb qəribliyə.
Əsrlərdi bitib qalıb,
kimsə demir nədən, niyə?

Ötən ötür, keçən keçir,
Görən görür, seçən seçir.
Dillənən yox, hamı susur,
Lillənən yox, hamı susur.
Leysan yağır, guruldayır,
Dolu döyür, dumbuldayır.
Daş deyil ki, bəxti qara,
Bu düz hara, bu daş hara?
Bu düzəndə bu daş - yara,
Bir daş düşüb qəribliyə.
Gün şaxıyır oda dönür,
Oylaq deyib çağırır o.
Daş dilində haray təpir,
Yaylaq deyib çığırır o.
Bir daş düşüb qəribliyə,
Oylağında yeri kəmdi.
Duman deyil o sürünən,
O tüstüdü, tüstü nəmdi.
Bir daş düşüb qəribliyə,
Yağış yağıb, yaş olubdu.
Həsrət elə bürüb-büküb,
Pərsəng idi, daş olubdu.

## DƏMİRÇİYDİ ƏMİM MƏNİM

*Müseyib əminin ruhuna*

Dəmirçiydi əmim mənim,
Ustaların ən ustası.
Nəfəsindən od çıxardı,
Ciblərindən dəmir pası.

Paslı idi geyimi də,
Paslı idi döşlüyü də.
Gün ərzində qazandığı
"Onluğ"u da, "beş"liyi də.

Qaladımı kürəsini,
Deyərdin bəs dan yeridi.
Qızartdığı dəmirlərə
Sanardın ki, qan yeridir.

Döyərdi hey,
Əyərdi hey.
Baxardın ki, divar boyu
Neçə təkər şini hazır.

Odun peçi, əyri oraq,
Balıq dişli çini hazır.
Oraqları, külüngləri
Sıralardı vəri ilə.
Qıpqırmızı dəhrəsini
Sulayardı təri ilə.

Dincələrdi arada bir,
Soruşardı dərslərimi.
Deyərdim ki, oxumuşam,
Açılardı səhər kimi.
Öləziyən ocağını
Durub yenə yandırardı.
Ağrısını, acısını
Mənə sözsüz qandırardı:
Zaman indi ayrı zaman,
Gedən gedir, ötən ötür.
Həvəsimə bu sənətə,
Bir qramlıq qələm götür.
...Əlimdədi qələm, əmi,
Doğar çəkmir, Batar çəkmir.
Bir qələmin çəkdiyini
Yükləyirəm,
qatar çəkmir.
Məndən umun qulağımda,
Haqqın böyük... itirmirəm.
Dünya adlı bir əsəri
Bir ömürdü bitirmirəm.

Vətən dərdi, övlad dərdi,
Ürəyim də qazıq-qazıq.
Düz əyilir, əyri kəsir,
Bəs neyləsin qələm yazıq?
Danışıram ikilikdə,
Yaxın bilmir, uzaq bilmir.
İstəyirəm mizan qurum,
Kumpul, zindan yaxın gəlmir.
Ağrı nədir:
ürək desin,
Ağır nədir:
kürək desin.
Əkən elə ümid əkir,
Çəkən elə ələm çəkir.
Bu dünyada ağır yükü
Bir qramlıq qələm çəkir,
qələm çəkir.

## BU DA BİR YAZIDI

Bu da bir yazıdı, yaşayıram mən,
Adıma gedəri qonaq deyirlər.
Boynumda haqq yükü daşıyıram mən,
Hər ötən anıma sınaq deyirlər.

Axtarıb bir qırıq düzlük tapmışam,
Mizandan keçəni düzlük sayıram.
Elə bil bir diri yüzlük tapmışam,
Abbası-abbası xırdalayıram.

Kimlərdi qazanan gündəliyimdən,
Görürəm axırda itirən mənəm.
Təndirlər yapılır kündəliyimdən,
Baxıram yenə də bitirən mənəm.

Yeyənlər yesinlər, nə deyirəm ki,
Deyirəm qoy hamı qismətli olsun.
Onsuz da təbim yox, nə yeyirəm ki,
Qismətli olan da ismətli olsun.

Qaralan közövə kömür deyirlər,
Görənlər yaxşıca topazlayırlar.
Əlimi sıxıram - şümür deyirlər,
Əlimi açıram - qapazlayırlar.

Halıma yananım heç yoxmuş, Allah,
Sökülən barımı hörmürəm hələ.
Varımı sayanlar nə çoxmuş, Allah,
"Al bunu" deyəni görmürəm hələ.

"Min əhsə"n deyərlər qoşub düzənə,
Hələ ki, dirəyəm, hələ ki, dayaq.
Həmişə özünə arxa gəzənə,
Mənim hörmətimdən nifrətim oyaq.

Yolunu kim tutub, kimlər azıbdı,
Boynumda haqq yükü daşıyıram mən.
Bu da bir yazıdı, yazan yazıbdı,
Bu da bir yazıdı - yaşayıram mən.

## YUXUMA ÖLƏNLƏR GƏLİR

Nədənsə yuxuma ölənlər gəlir,
Nədənsə dirilər gəlməyir heç vaxt.
Dərdimi, sərimi bölənlər gəlir,
Dirilər dərdimi bölməyir heç vaxt.

Deyirik, gülürük, şaqqıldaşırıq,
Gələnlər hamısı şux dayanırlar.
Kəkliyə dönürük, qaqqıldaşırıq,
Dirilər yuxudan dik oyanırlar.

Əlli il arxaya dönürəm elə,
Özüm də əlli il cavanlaşıram.
Bəriyə gələndə sönürəm elə,
Bəriyə gələndə yavanlaşıram.

Oduna gedirik, ota gedirik,
Şirin söhbətlərin məti tökülür.
Diri qalanlardan söhbət edirik,
Ölü dirilərin əti tökülür.

Gedirik, gəlirik, haylaşırıq hey,
Məzələr yerində, söhbət yerində.
O sənin, bu mənim - paylaşırıq hey,
Cəvərən yerində, səbət yerində.

Şirin danışırıq, şirin gülürük,
Tələsən əl verir, gizli getməyir.
Dərdi də, səri də elə bölürük,
Bir kimsə sinəsi sözlü getməyir.

Yuxuma əzəli gələnlər gəlir,
Kəpəzə dönürəm, Qaflaşıram mən.
Nə yaxşı, yuxuma ölənlər gəlir,
Nə yaxşı, beləcə saflaşıram mən.

## HƏR GÜN KƏNDƏ GEDİRƏM

Gecə-gündüz kənddəyəm,
Hər gün kəndə gedirəm.
Gah istidə, bürküdə,
Gah da çəndə gedirəm.

Görürəm ki, kənd həmən,
Elə hamı yerində.
Çiyələyin, moruğun
Dadı-tamı yerində.

Çürüməyib çəpərlər,
Çör-çöpü də sağdı, sağ.
Sanki quş da səkməyib,
Hər çöpü də sağdı, sağ.

Kimisi ot şələli,
Kimi əkin-biçində.
Adamlar elə doğma -
Bir birinin içində.

Sanki kimsə ölməyib,
Sanki kimsə itməyib.
Heç toylar da olmayıb,
Təzələr də bitməyib.
Elə hamı mən nəsil,
Elə hamı mən əsil.

Ürəyimdə məhəbbət,
Tağ deyil ki, qoparım.
Aparmırsız siz məni,
Ölüm, özüm aparım.

